# KİTABŞÜNASLIQ

**UOT 070.3(479.24)**
**KBT Ч617(2A)**

## Azərbaycan kitabı 1940-1960-cı illərdə

**L.X.Talıbova**
kitab_palatasi@anl.az

**Xülasə:** *1941-1960-cı illər kitab nəşrinin həm ümumi ideya və mədəni səviyyəsi, həm bədii tərtibatı, həm də kitab sərvətinin toplanılıb mühafizə edilməsi, təbliği və kitab ticarəti sahəsində yeni nailiyyətlər dövrü idi. Azərbaycan kitabının yeni, diqqətəlayiq cəhətlərindən biri onun dünya ədəbiyyatının ən seçmə nümunələrini əhatə etməsi idi. Beləliklə, 1941-1960-cı illərdə Azərbaycanda kitab nəşri mədəniyyəti dövrün və şəraitin xüsusiyyətlərini nəzərə almaqla elm sahələrini, oxucu sorğularını və tələbatlarını ödəmək məqsədilə həyata keçirilmiş, Azərbaycan xalqının elminin, maarifinin, təhsilinin, mədəniyyətinin və ölkənin tərəqqisinin inkişafına xidmət etmişdir. Bütün bu yuxarıdakıları nəzərə alıb, qeyd etmək lazımdır ki, müharibədən əvvəl və sonrakı illərdə xalq təsərrüfatına, təhsilə, hərbi sənayeyə, səhiyyəyə, neft sənayesinə və s. sahələrə hökumət tərəfdən böyük diqqət və qayğı göstərilirdi. Əgər müharibə vaxtı bütün kitab işi "Hər şey cəbhə üçün, hər şey qələbə üçün" şüarı altında inkişaf edirdisə, müharibədən sonrakı illərdə əsas diqqət bu sahələrin bərpa olunmasına həsr edilirdi.*

**Açar sözlər:** *kitab nəşri, Kitab Palatası, Azərbaycan kitabı*
**Ключевые слова:** *книгоиздание, Книжная Палата, Книга Азербайджана*
**Key words:** *book publication, Book House, Azerbaijani book*

> "Azərbaycan kitabı" ölkəmizin təbiəti, tarixi, mədəniyyəti, dünəni və bu günü ilə tanışlıqdır.
>
> ***Mehriban Əliyeva***

Azərbaycan kitab nəşrinin əsas ideya məzmunu respublikada xalq maarifi və mədəni-maarif işlərinin qurulması sahəsində mühüm tədbirlər görməkdən

ibarət idi. Bu tədbirlərdən biri Azərbaycan Dövlət Kitab Palatasının yaradılması idi. Həmin təşkilatın fəaliyyəti dövründə gələcək nəsillər üçün sanballı, dəyərli nəşrlər qorunub saxlanmışdır. Ümumiyyətlə Kitab Palatasını mədəni irs mənbələrindən biri kimi adlandırmaq olar.

1960-cı ildən başlayaraq Azərbaycan Dövlət Kitab Palatası "Birillik Azərbaycan Kitabiyyatı" adlı vəsait buraxmağa başladı. Ancaq 1960-cı ilə qədər "Azərbaycan kitabı" demək olar ki, biblioqrafik gösrərici kimi nəşr olunmamışdır. İlk addımı Kitab Palatası 1964-cü ildə atmışdır. Həmin ildə 1780-1920-ci illəri əhatə edən "Azərbaycan kitabı"nın I cildi nəşr olunmuşdur. 1982-ci ildə 1920-1940-cı illəri əhatə edən "Azərbaycan kitabı"nın II cildi nəşr olunmuşdur.

2014-cü ildə Azərbycan Milli Kitabxanasının Çap məhsullarının qeydiyyatı və milli biblioqrafiya şöbəsi tərəfindən 1941-1959-cu illəri əhatə edən "Azərbaycan kitabı"nın III cildi hazırlanmışdır.

1941-1960-cı illərdə Azərbaycanda kitab nəşri çox geniş miqyasda inkişaf etmişdir. 1941-ci ildə hərbi iş, riyaziyyat, fizika, kimya, kimya texnologiyası, geologiya, energetika, elektronika, maşınqayırma, metal emalı, dağ-mədən işi, kənd təsərrüfatı texnikası, yanacaq sənayesi, nəqliyyat, rabitə və texnika ilə bağlı olan başqa sahələr üzrə Azərbaycan dilində 205, rus dilində isə 190 adda, cəmi 395 adda kitab nəşr olunmuşdur. Ölkənin bu ağır günlərində kitab nəşri də xalq təsərrüfatının vacib sahələri ilə bərabər, "Hər şey cəbhə üçün, hər şey qələbə üçün" şüarı altında çalışırdı. Müharibə illərində respublikanın nəşriyyatları çoxlu miqdarda təbliğat xarakterli elmi-kütləvi kitab, kitabça, plakat buraxmışdır. Bunları buraxmaqda məqsəd hərbi texnikanı, onun əhəmiyyətini müxtəlif silahların müharibədə oynadığı rolu xalqa çatdırmaq, əhalini cəbhədə və arxada faşist işğalçılarına qarşı müharibədə qalib gəlməyə ruhlandırmaq idi.

Təkcə 1941-ci ildə hərbi işin müxtəlif sahələrinə aid 110 adda müxtəlif mövzularda, müxtəlif növlərdə və tiplərdə ədəbiyyat nəşr edilmişdir.

Hərbi iş üzrə nəşr olunan kitabların əksəriyyəti rus dilindən tərcümə edilirdi. Həmin kitablar bunlardır: "Atıcı snayperlər üçün atəş hazırlığı kursu (KOPS - 38) atışlar" (1941); I.A.Vinoqradov "Tüfəng və əl pulemyotları ilə düşmən aeroplanlarını necə vurmalı" (1941); V.Qlazotov "Dəzgahlı pulyemyot döyüşdə" (1941); "Kimya hücumundan müdafiə və yandırıcı maddələrdən qorunma: döyüşçü üçün yaddaş" (1941); V.Qlazotov "Əl pulemyotu və onun işlədilməsi" (1942); V.Qlazotov "Stanoklu pulemyot və onun işlədilməsi" (1942) və s.

Ümumiyyətlə, 1942-1945-ci illərdə respublika nəşriyyatları Azərbaycan dilində 125 adda 700 min nüsxədən çox ümumi tirajla hərbi işə aid müxtəlif kitabları çapdan buraxmışdır. Hərbi iş üzrə kitabların tərcüməsində - C.Rzaquliyev, N.Bağırov, Ə.Əbdürrəhimov, A.Ağayev, Ə.Musayev, H.Vəli, A.Əfəndiyev, P.Hüseynov, Z.Abdullayev, M.Məmmədov, Ə.Yolçinski və b. xidmətləri-

ni göstərmək olar. Həmin illərdə neftçıxarma, neftin işlənməsinə, neft kimyasına, fəhlələrin mədənlərdə təhlükəsizlik texnikasına aid çoxlu kitab və kitabçalar buraxılmışdır. Bu illərdə kimya elminin inkişafında silinməz izlər buraxan Y.Məmmədəliyevin əsərlərinin əhəmiyyəti hədsiz dərəcədə böyük idi. Y.H.Məmmədəliyevin monoqrafıyası “Редакция алкирования в производстве авиационных топлив” adı altında 1945-ci ildə nəşr olunmuşdur. Görkəmli alimin 1943-cü ildə “Синтез толуола алкированием и деалкированием автоматических углеводородов” və M.F.Nağıyevlə birlikdə yazdıqları “Современное состояние химии и технологии авиацонных топлив” adlı monoqrafiyalarının əhəmiyyəti də xüsusi qeyd olunmalıdır.

Neftin qazılması və çıxarılması sahəsində texnikanın və texnologiyanın təkmilləşməsi müharibə illərində də həyata keçirilmişdir. Elmi axtarışlar, tədqiqatlar, istehsalatda çalışan mütəxəssislərlə sıx əlaqə şəraitində aparılırdı. Neft və qaz yataqlarının işlənməsi, öyrənilməsi və inkişafının nəticələri alimlərin, geoloqların, qazmaçıların, istismarçıların elmi əsərlərində və məcmuələrində öz əksini tapmışdır. Bunlara misal olaraq Y.Cəfərovun “Qazımada gilli məhlullar” (1941); Ə.Əlizadə və M.Ağabəyovun “Azərbaycan neft sənayesinin yeni qüvvətli yüksəlişi uğrunda” (1941) adlı nəşrləri göstərmək olar.

Müharibə illərində neft-qaz yataqlarının geologiyası, palentologiyası, məhəlli geologiyası, geofiziki axtarışlar, hidrogeologiya və s. sahələrdə tədqiqat işləri aparılmış və nəticədə bir sıra qiymətli elmi əsərlər meydana çıxmışdır.

Bu illərdə geologiya elmləri üzrə bir sıra elmi-tədqiqat işlərinə həsr edilmiş monoqrafiyalar meydana çıxmışdır. Ə.Əlizadə və M.Ağabəyovun “İnstrumental planaalma metodları və krelius qazıması” (1941); Ş.Məmmədovun "Исследование в области простых эфиров гликолей" (1944); Ş.Ə.Əzizbəyovun “Шамхорские интрузивы и их жильные дериваты” (1945); M.Qaşqayın "Роль геологии и стратегического сырья в современной войне" (1942) və s. kitabları misal göstərmək olar.

1941-ci ildə respublikada bütün elm və bilik sahələri üzrə Azərbaycan dilində 719, rus dilində 385 adda və digər dillərdə cəmi 1130 adda kitab çapdan buraxılmışdır.

Müharibə illərində çap edilmiş tədris kitablarının müqayisəsi göstərir ki, bu dövrdə ən çox yeddiillik və orta məktəblər üçün dərsliklər, dərs vəsaitləri nəşr edilmişdir. Bu dövrdə ibtidai, yeddiillik və orta ixtisas məktəbləri üçün 630.000 nüsxəyə yaxın ümumi tirajla 58 adda dərslik və dərs vəsaiti çap olunmuşdur. Bu ədəbiyyatın çox hissəsini Azərbaycan dilində buraxılan kitablar təşkil edirdi. 1942-1945-ci illərdə Azərbaycan dilində 41 adda 500.000 nüsxə ümumi tirajla ibtidai və orta məktəblər üçün tədris kitabları nəşr olunmuşdur. Tədris kitablarının əksəriyyəti rus dilindən tərcümə olunurdu. Bütün kitabların, o cümlədən tədris kitablarının tirajı xeyli azalmışdı. Əgər müharibənin ilk illə-

rində, yəni 1941-ci ildə yeddillik və orta məktəblər üçün dərsliklərin hər biri 20.000 - 35.000 nüsxə tirajla buraxılırdısa, 1942-ci ildən dərsliklərin hər biri 15.000 - 20.000 nüsxə tirajla buraxılmağa başladı.

Azərbaycanda texniki kitabın məqsəd istiqamətinə görə öyrənilməsi göstərir ki, bu dövrdə çapdan buraxılan texniki kitabın çox hissəsini neft və qaz sənayesi üzrə kitablar təşkil etmişdir. Bu kitablardan sonra dərsliklər və dərs vəsaitləri, elmi-kütləvi və sorğu-məlumat ədəbiyyatı gəlir.

Bu illərdə energetika, maşınqayırma, neft, inşaat, nəqliyyat və s. sahələr üzrə əhəmiyyətli dərsliklər və dərs vəsaitləri nəşr olunmuşdur. Energetika, elektrotexnika və elektronika üzrə nəşr edilmiş və geniş yayılmış dərsliklərə nümunə olaraq Z.İ.Kazımzadənin "Ümumi elektrotexnika" (1955), P.B.Rüstəmzadənin "Elektrik stansiyaları və yarımstansiyalarının elektrik hissəsi" və s. nəşrləri göstərmək olar.

1941-1960-cı illərdə ictimai-siyasi, təlim-tərbiyə, təhsil və ədəbi-bədii, o cümlədən bədii tərcümə ədəbiyyatının nəşrinə xüsusi diqqət yetirilmişdir. "Rusca-azərbaycanca maşınqayırma texnologiyası terminləri lüğəti" (1958), "Rusca-azərbaycanca elektrotexnika terminləri lüğəti" (1958), "Fəlsəfə terminləri lüğəti" (1959) və s. Lüğətçiliyin inkişafı yeni-yeni terminlərin yaranmasına əsas olurdu. Həmçinin bu proses müxtəlif dilli lüğətlərin və terminlərin meydana gəlməsinə səbəb olurdu. Məsələn: "Azərbaycanca-rusca lüğət" (1941), "Rusca-azərbaycanca lüğət", "Müxtəsər farsca-rusca-azərbaycanca lüğət" (1945), "Rusca-farsca-azərbaycanca müxtəsər lüğət" (1944).

Ədəbi-bədii kitab nəşrinin müəyyən hissəsini rus dilindən ana dilimizə tərcümə edilən bədii ədəbiyyat nümunələri təşkil edir. Böyük Vətən müharibəsi və müharibədən sonrakı illərdə görkəmli rus yazıçı və şairlərinin ayrı-ayrı əsərləri, seçilmiş əsərləri, əsərlər külliyyatı, çoxcildli əsərləri nəşr edilmişdir. Müharibə illərində vətənpərvərlik ədəbiyyatının çap olunmasına böyük tələbat var idi. Çoxlu miqdarda, o cümlədən uşaqlar üçün, vətənpərvərlik, beynəlmiləlçilik, vətənə məhəbbət və düşmənə nifrət hissləri yaradan şeirlər, hekayələr, poemalar buraxılırdı. Onu da qeyd etmək lazımdır ki, bu kitabların əksəriyyəti balaca formatda idi. Ona görə ki, döyüşçülər bu kitabları yanlarında gəzdirə bilsinlər və onlarda ruh yüksəkliyi, vətənpərvərlik hissi daha da yüksəlsin.

Müharibənin ağır günlərinə baxmayaraq, respublikada əlamətdar və tarixi günlər də qeyd olunurdu. 1941-ci ildə dahi Azərbaycan şairi Nizami Gəncəvinin anadan olmasının 800 illiyi olmalı idi. Ancaq müharibə başladığına görə bu yubiley 1947-ci ildə keçirilmişdir. Yubileyə hazırlıq işləri 1941-ci ildən başlamışdı. Məsələn: Nizami Gəncəvinin yubileyi üçün onun nəşr edilən kitablarının siyahısı buraxılmış, Nizami Gəncəvinin 800 illiyinin keçirilməsi haqqında 1946-cı ildə yaddaş nəşr olunmuşdur, 1942-ci ildə H.Araslının "Nizami və vətən" kitabı çapdan çıxmışdır, 1947-ci ildə Nizami Gəncəvinin 800 illiyinə

həsr edilmiş təntənəli konsertin məramnaməsi çap olunmuşdur. Onu da qeyd etmək lazımdır ki, müharibə illərinə baxmayaraq Bakıda Nizami Muzeyi açılmışdır.

Bu dövrdə tibbi ədəbiyyatın da nəşri geniş inkişaf etmişdir. Tibb elminin mühüm sahələri və problemləri: insan anatomiyası və fiziologiyası, stomatologiya, cərrahlıq, infeksion xəstəliklər, gigiyena, dərman terapiyası, sanitariya və s. üzrə maraqlı və əhəmiyyətli kitablar nəşr edilmişdir. Mütləq qeyd etmək lazımdır ki, hərbi cərrahiyyə, sanitariya və gigiyena kitablarına, valideynlər üçün uşaqları yoluxucu xəstəliklərdən necə qorumaq üçün müxtəlif yaddaşlar və kitabçalar buraxılmışdır. Məhz bu illərdə hərbi tibbin bütün sahələri inkişaf edirdi və əhaliyə ilk yardım göstərmək üçün müxtəlif yaddaşlar nəşr olunmuşdur.

Ümumiyyətlə, 1942-1945-ci illərdə respublika nəşriyyatları Azərbaycan dilində 125 adda 700 min nüsxədən çox ümumi tirajla hərbi işə aid müxtəlif kitabları çapdan buraxmışdır. Bu dövrdə rus dilində 25 adda, 120.000 nüsxə ümumi tirajla hərbi işin müxtəlif sahələrinə aid kitab nəşr edilmişdir.

Müharibədən sonrakı illərdə, 1946-cı ildən başlayaraq respublikanın poliqrafiya istehsalı tədricən artmağa başladı. Bu, xalq təsərrüfatının, sənayenin və mədəniyyətin müharibədən sonra bərpa olunması ilə əlaqədar idi. Bədii ədəbiyyatda yenə də vətənpərvərlik mövzusuna geniş yer ayrılırdı. Qalib gələn xalq alqışlanırdı. Kənd təsərrüfatının bərpa olunmasına, xüsusilə bitkiçiliyə və heyvandarlığa aid çoxlu kitablar buraxılmışdır. Neft və kimya üzrə coxlu kitab və kitabçalar çap olunmuşdur. Bu ondan irəli gəlir ki, neftkimya ümumiyyətlə, respublikanın kimya sənayesinin qabaqcıl sahəsi idi. Amma indi neftkimya müharibə üçün yox, sülh üçün inkişaf edirdi.

Azərbaycanda texnikanın, sənayenin durmadan inkişafı ayrı-ayrı sənaye, nəqliyyat və s. iş sahələrinə aid ədəbiyyatın artmasına da səbəb olnuşdur. 1947-ci ildən 1956-cı ilə qədər olan dövrdə texnika, nəqliyyat, sənaye üzrə 16000 1100 adda kitab çap olunmuşdur. Azərbaycanın kitab nəşri içərisində kənd təsərrüfatı da mühüm yer tutmaqda idi. Kənd təsərrüfatına dair çoxlu ədəbiyyat nəşr olunurdu.

Bu dövrdə xalq maarifi və təhsil məsələlərinə də xüsusi fikir verilirdi. Dərsliklərin çap edilməsi ildən-ilə artmaqda idi. Azərbaycan ədəbiyyatının çox qiymətli, gözəl əsərləri külli tirajlarla çap olunmuşdur.

Azərbaycan yazıçılarından C.Cabbarlı, S.Vurğun, M.İbrahimov, H.Mehdi, R.Rzanın əsərləri başqa ölkələrin xalqları içərisində də böyük şöhrət qazanmışdır. Rus ədəbiyyatı klassiklərinin əsərləri böyük həvəslə Azərbaycan dilinə tərcümə və çoxlu tirajla çap olunmuşdu.

Bu dövrün kitab mədəniyyətində ən mühüm nailiyyətlərdən biri elm, sənaye və texnikanın sahələrinə aid zəngin ədəbiyyatın buraxılması idi. "Azərnəşr", "Azneftnəşr" və s. nəşriyyat, müəssisə və elmi idarələr xalq təsərrüfatının aktu-

al problemləri, alimlərin kəşf və ixtiraları haqqında onlarca qiymətli kitab, dərs vəsaiti çap edib yayırdı.

Təbiətşünaslığa və texniki elmlərə aid kitablara nisbətən ictimai elmlərə aid ədəbiyyat nəşriyyat planlarında daha çox yer tuturdu. İctimai-siyasi, fəlsəfə və hüquqşünaslığa aid ədəbiyyatdan əlavə, ümumi tarixə, Azərbaycanşünaslığın bir çox sahələrinə - Azərbaycan tarixinə, dil, ədəbiyyat və folklorumuzun keçmişinə, arxeologiya, etnoqrafiya və s. sahələrə aid monoqrafik tədqiqat əsərləri, dərsliklər, kitabçalar çapdan buraxılırdı.

Bu illərdə kiçik həcmli kitabçaların ardınca sanballı kitablar, çoxcildlik nəşrlər çıxmağa başladı. Nəşriyyatların müəyyən seriyalar üzrə kitablar buraxması, kitab məhsulunun xalq təsərrüfatı, elm və texnikanın yeni-yeni sahələrini əhatə etməsi mühüm yeniliklərdən idi. Neft və texnikaya aid ədəbiyyat, iqtisadiyyatın müxtəlif sahələrinə aid kitablar buraxılması Azərbaycan kitabının öz inkişaf tarixində yeni bir mərhələyə qədəm qoyduğunu göstərirdi.

**Ədəbiyyat**

1. Allahverdiyev B.V. Böyük Vətən müharibəsi illərində Azərbaycanda texniki ədəbiyyatın nəşri (1941-1945) //Elmi Əsərlər: kitabxanaşünaslıq və biblioqrafiya seriyası /ADU. Bakı, 1972, №1, s.4
2. Azərbaycan SSR-nin mətbuatı (1920-1956). Statistik materiallar. Bakı: Azərbaycan Kitab Palatasının nəşri, 1958, s.20-21
3. Xələfov A.Heydər Əliyev və Azərbaycanda kitabxana işi. Bakı: Azərnəşr, 2006, 312s.
4. Xələfov A. Azərbaycanda kitabxana işinin tarixi. Dərslik. I hissə. Bakı: Bakı Universiteti Nəşriyyatı, 2004, 328s.
5. Xələfov A. Azərbaycanda kitabxana işinin tarixi. Dərslik. II hissə. Bakı: Bakı Universiteti Nəşriyyatı, 2007, 552s.

**Книга Азербайджана в 1940-1960 годы**

Л.Х.Талыбова

**РЕЗЮМЕ**

*1941-1960 годы в азербайджанском книгоиздании ознаменовались невиданным подъемом идейно-патриотического и культурного уровня. Эти годы можно считать успешными также и в области художественного оформления книг, сохранения культурного богатства страны, популяризации книжного слова, а также - более высокой ступенью в книжной торговле и индустрии. Со всей уверенностью можно сказать, что книгоиздание в Азербайджане в 1941-1960 годы, учитывая особенности военных лет и трудности послевоенного периода, всецело было поставлено на службу азербайджанской науке, просвещению, образова-*

*нию, культуре, воспитанию нового, высокоинтеллектуального поколения и, в конечном итоге, прогрессу республики. Принимая во внимание все вышесказанное, необходимо отметить, что государство страны в военный и послевоенный период уделяло неизменное внимание и заботу развитию народного хозяйства, военного дела, образования, здравоохранения, нефтяной промышленности. Если во время войны все книги выходили под лозунгом «Все для фронта, все для Победы!», и были подчинены этой праведной миссии, то в послевоенный период основное внимание стало уделяться восстановлению и развитию перечисленных областей народного хозяйства.*

**Azerbaijani book during the 1940s-1960s**

L.Kh.Talıbova

**SUMMARY**

*The years 1941-1960 were the period of new achievementsin the fields of general idea and cultural level of book publication, artistic design, preservation and promotion of book wealth, and in the field of book trade. Thus, in the years of 1941-1960, book publication culture was carried out in order to meet the inquiries and needs of readers, and it served to the development of Azerbaijani people's science, enlightenment, education, culture and country's progress, taking into account the characteristics and conditions of the time. One of the new and remarkable features of Azerbaijani book was covering the most outstanding examples of the world literature. Given all this, it should be noted that during the years before and after the war, the government showed great care and attention to the national economy, education, military, industry, health care, oil industry and other fields. While all book cases were growing under the motto "Everything is for battle-front, everything is for victory"during the war years, the main focus was on the restoration of these areas during the post-war years.*